# Şəddat babaya bir məktub

Əzizimiz Şəddat müəllim, atanız haqqında qeydlərinizi oxudum. Mənə bir çox məsələlər daha da aydın oldu. Əsas aydın olan budur ki, sizin bir insan kimi müdrikliyinizin, mənəvi sağlamlığınızın, təbiətən zənginliyinizin qaynaqları haqqında dəqiq məlumatlar aldım.

Mən sizə həmişə Şəddat baba deyə müraciət edirəm. Çünki bir babanın gənc nəslə qayğıkeş münasibətini ünsiyyətimiz zamanı hiss etmişəm. Hər dəfə sizinlə görüşəndə qəlbim fərəh hissi ilə dolur, sevinirəm ki, hər kəsə doğma münasibət göstərən, sözün həqiqi mənasında mənim kimiləri üçün babalıq missiyası daşıyan bir müdriklə yaxından tanışam. Axı mən sizin zəngin həyatınız haqqında kifayət qədər məlumatlıyam, tərcümeyi-halınızı yaxşı bilirəm, əsərlərinizi oxumuşam. Elmi fəaliyyətiniz, bədii yaradıcılığınız öyrənmək istəyənlərin düşüncələrini qidalandırmaq baxımından çox dəyərlidir. Sözüm ondadır ki, atanız haqqındakı qeydlərinizdə şərəfli bir ata yolunun layiqli davamçısı olduğunuzu da anladım.

Müharibə veteranları, İkinci Cahan savaşının qəhrəmanları haqqındakı yazılarınızı ardıcıl oxuyur, fikir bildirməyə çalışıram. Yəqin ki, bu işimi davam etdirəcəyəm. Şəddad müəlllim, sizin həyat yolunuz bir çox cəhətdən örnəkdir. Bunlardan biri də ata yolunu əziz tutmağınız, onun xatirəsinə xüsusi hörmət və ehtiram göstərməyinizdir. Şübhəsiz, hər kəs Muğdat Hüseyn oğlu Cəfərovun kim olmağını yazdığınız qısa qeydlərdən tam təsəvvür edə biləcək. O, II Cahan savaşının qəhrəmanıdır. "Qırmızı bayraq" ordenilə təltif olunub, "Döyüş xidməti" medalına layiq görülüb. Çox adlı-sanlı nəslin tanınmış bir siması olaraq özünün müharibə qəhrəmanı obrazında təmsil edə bilib. Nəslinizin yaşadığı repressiyalar, təqiblər, siyasi ittihamlar onun gözünü qırmayıb. Müharibədən sonra əmək cəbhəsində də ailəyə şərəflə başçılıq etməkdə əvəzsiz bir insan kimi tanınıb. Ona görə də belə insanları cəmiyyətə təkrar tanıtmaq onların üstün cəhətlərini bu günün insanlarına çatdırmaq çox vacibdir.

İndi fəxr edirəm ki, Əli Rza Xələfli ilə birgə "Böyük portretin işığı" əsərində mənim də imzam görünür.

Bir sözlə, inanıram ki, yolumuz işığadır. Çünki sizin kimi müdrik insanlar var. Sizin kimi işıq olan örnəklərimiz var...

***Ceyhun ZALLI***
***09.02.2021***

Kredo 2021.- 10 fevral.- S.11.